**«Razılaşdırılmışdır»**

Azərbaycan Respublikası
Maliyyə Nazirliyinin
Dövlət Sığorta Nəzarəti
Şöbəsinin müdiri

*(imza, möhür)*
**N. Xəlilov**
30 yanvar 2009-cu il

**«Təsdiq edirəm»**

«Atəşgah» Sığorta Şirkətinin
Baş direktoru

*(imza, möhür)*
**A.A. Əliyev**
30 yanvar 2009-ci il

# Fərdi qəza sığortası QAYDALARI

**«Atəşgah» Sığorta şirkəti**
**2009**

## Mündəricat:

**I Fəsil. Ümumi müddəalar**

**Maddə 1.** Əsas anlayışlar
**Maddə 2.** Sığorta predmeti
**Maddə 3.** Sığorta sinfi

**II Fəsil. Sığorta təminatı**

**Maddə 4.** Sığorta riskləri
**Maddə 5.** Fərdi qəza
**Maddə 6.** Sığorta təminatında məhdudiyyətlər
**Maddə 7.** Sığorta risklərindən istisnalar
**Maddə 8.** Sığortanın ərazisi

**III Fəsil. Sığorta məbləği və sığorta haqqı**

**Maddə 9.** Sığorta məbləği
**Maddə 10.** Sığorta haqqının hesablanması
**Maddə 11.** Sığorta haqqının ödənilməsi
**Maddə 12.** Sığorta haqqının vaxtında ödənilməməsi
**Maddə 13.** Sığorta müqaviləsinin bağlanması qaydası
**Maddə 14.** Sığorta müqaviləsinə əlavələr və dəyişikliklər edilməsi və xitam verilməsi qaydası
**Maddə 15.** Sığorta müqaviləsinə vaxtından əvvəl xitam vermə ilə bağlı xəbərdar etmə
**Maddə 16.** Sığorta müqaviləsinə vaxtından əvvəl xitam vermənin nəticələri
**Maddə 17.** Sığorta müqaviləsində əlavə şərtlərin nəzərdə tutulması
**Maddə 18.** Sığorta müqaviləsinin qüvvəyə minməsi
**Maddə 19.** Sığorta müqaviləsi qüvvədə olduğu zaman tərəflərin qarşılıqlı münasibətləri
**Maddə 20.** Mühüm şərtlər
**Maddə 21.** Sığorta müqaviləsinin müddəti

**IV Fəsil. Sığorta hadisəsi zamanı ediləcək hərəkətlər**

**Maddə 22.** Sığorta hadisəsi baş verdikdə Sığortalının vəzifələri
**Maddə 23.** Ziyanın qarşısının alınması və həcminin azaldılması
**Maddə 24.** Sığortaçı tərəfindən nəzarət
**Maddə 25.** Sığorta hadisəsinin sübut olunması

**V Fəsil. Sığorta ödənişi**

**Maddə 26.** Sığorta ödənişinin həcmi
**Maddə 27.** Fərdi qəza hadisəsinin nəticələrinin təzahür müddəti
**Maddə 28.** Sığorta müqaviləsində göstərilməyən bədən xəsarətləri
**Maddə 29.** Bir neçə xəsarət üzrə ödəniş
**Maddə 30.** Əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə sığorta ödənişi
**Maddə 31.** Sığorta ödənişinin verilməsi üçün tələb olunan sənədlərin siyahısı
**Maddə 32.** Sığorta ödənişinin həyata keçirilməsi qaydası və şərtləri
**Maddə 33.** Sığorta ödənişinin verilməsindən imtinanın əsasları
**Maddə 34.** Sığorta müqaviləsinin şərtlərinin yerinə yetirilməməsinə və ya lazımi qaydada yerinə yetirilməməsinə görə tərəflərin məsuliyyəti
**Maddə 35.** Mübahisələrin həlli qaydası

## I Fəsil
## Ümumi müddəalar

### Maddə 1. Əsas anlayışlar

Bu Qaydalarda və bu Qaydalar əsasında bağlanmış Sığorta müqavilələrində aşağıdakı əsas anlayışlardan istifadə olunur:

**Sığortaçı -** «Atəşgah» Sığorta şirkəti;

**Sığortalı** - sığorta haqqı ödəyən, sığorta obyektinin sığorta etdirilməsində sığorta marağı olan, Sığorta müqaviləsinin tərəfi;

**Sığorta olunan** - Sığorta müqaviləsi əsasında əmlak mənafeləri sığortalanan şəxs; Əgər sığorta müqaviləsində başqa Sığorta olunan göstərilməmişdirsə, Sığortalı eyni zamanda Sığortalı olunan hesab olunur. Bu Qaydalarda və Sığorta müqaviləsində Sığortalıya aid edilən bütün müddəalar Sığorta olunana da eyni dərəcədə aid edilir.

**Faydalanan şəxs** - Sığorta müqaviləsinə uyğun olaraq sığorta ödənişini almaq hüququ olan şəxs; Sığorta müqaviləsində Faydalanan şəxs qismində başqa şəxs nəzərdə tutulmamışdırsa, Sığortalı və (və ya) Sığorta olunan Faydalanan şəxs sayılır.

**Sığorta obyekti** - Sığorta olunanın həyatı, sağlamlığı və əmək qabiliyyəti ilə bağlı Sığortalının qanunazidd olmayanəmlak mənafeləri;

**Sığorta hadisəsi** – qanunvericiliyə və ya Sığorta müqaviləsinə görə sığorta ödənişinin Sığortalıya, Sığorta olunana və ya digər faydalanan şəxslərə ödənilməsi üçün əsas olan, Sığorta müqaviləsinin qüvvədə olduğu müddət ərzində baş verən hadisə və ya yaranan hal;

**Sığortanın müddəti** – sığorta risklərinin sığortalandığı müddət;

**Sığorta məbləği** – sığortalanmış risklər üzrə Sığortaçının öhdəliyinin qanunvericilik, yaxud müqavilə ilə müəyyənləşdirilmiş məbləğlə ifadə olunan son həddi;

**Sığorta tarifi** – sığorta haqqının məbləğindən faizlə ifadə olunmuş dərəsi.

**Sığorta haqqı** – risklərin qəbul edilməsi və ya bölüşdürülməsi müqabilində Sığorta müqaviləsində nəzərdə tutulan qaydada Sığortalının Sığortaçıya ödəməli olduğu pul məbləği;

**Sığorta ödənişi** – sığorta hadisəsi baş verdikdə Sığorta müqaviləsinə uyğun olaraq Sığortaçı tərəfindən ödənilən maliyyə kompensasiyası;

**Mühüm şərtlər** – Sığorta müqaviləsində, yaxud Sığorta şəhadətnaməsində göstərilmiş və Sığortalı tərəfindən yerinə yetirilməməsi Sığortaçının sığorta ödənişi verməkdən imtina etməsi və ya Sığorta müqaviləsini, yaxud Sığorta şəhadətnaməsini ləğv etməsi üçün əsas olan şərtlər;

**Sığortanın ərazisi** - sığorta təminatının qüvvədə olduğu ərazi;

**Assistans şirkəti** - sığorta sahəsində yardımçı fəaliyyət göstərən hüquqi şəxs;

**Ümumi əmək qabiliyyətinin müvəqqəti itirilməsi** - hər hansı Sığorta olunanı müəyyən qısa müddət ərzində hər hansı peşə ilə məşğul olmaqdan müvəqqəti və ya bütövlükdə məhrum edən пешя əmək qabiliyyətinin itirilməsi – bu müddətin bitməsindən sonra Sığorta olunanın əmək qabiliyyəti tam bərpa olunmalıdır və ya o, ümumi əmək qabiliyyətinin itirilmə dərəcəsinin müəyyən edilməsi üçün Tibbi-Sosial Ekspert Komissiyasına göndərilməlidir;

Ümumi əmək qabiliyyətinin daimi itirilməsi – vaxt keçdikcə bərpa oluna bilməyən, ümumi əmək qabiliyyətinin tam və ya qismən itirilməsi (əlillik).

### Maddə 2. Sığorta predmeti

Bu Qaydalara əsasən sığorta predmeti Sığorta olunanların həyatı, sağlamlağı və əmək qabiliyyətidir.

### Maddə 3. Sığorta sinfi

Bu Qaydalara əsasən təqdim olunan sığorta məhsulu fərdi qəza sığortası sinfinə aiddir.

## II Fəsil
## Sığorta təminatı

**Maddə 4. Sığorta riskləri**

4.1. Sığortaçı ilə Sığortalı razılığa gəlirlər ki, əgər sığortanın qüvvədə olduğu müddət ərzində bu Qaydaların istisnaların qüvvəsi altına düşməyən fərdi qəza hadisəsinin təsiri nəticəsində Sığorta olunanın həyat və sağlamlığına ziyan dəyərsə və ya o həlak olarsa, Sığortaçı Sığorta olunana və ya onun qanuni vərəsələrinə Sığorta müqaviləsində nəzərdə tutulan sığorta məbləği çərçivəsində sığorta ödənişi verəcək.

4.2. Bu sığorta Sığorta olunanın həyat və sağlamlığına aşağıdakı ziyanın dəyməsinə səbəb olan fərdi qəzalara qarşı təminat verir:

4.2.1. Ümumi əmək qabiliyyətinin müvəqqəti itirilməsi;

4.2.2. Ümumi əmək qabiliyyətinin daimi itirilməsi;

4.2.3. Ölüm.

**Maddə 5. Fərdi qəza**

5.1. “Fərdi qəza” dedikdə şəxs üzərində xarici fiziki təsirlərlə bağlı olan, onun həyat və sağlamlığına ziyan vuran qəfil, oncədən görünməyən və təsadüfi (qəsdən edilməyən) hadisə başa düşülür.

5.2. Xəstəlik, patalogiya və digər daxili səbəblər fərdi qəzalara aid edilmir.

**Maddə 6. Sığorta təminatına məhdudiyyətlər**

Aşağıdakı şəxslər sığorta təminatından istisna olunurlar:

6.1. I və II qrup əlillər;

6.2. Sığorta müqaviləsi bağlanan zaman yaşı 16-dan az və ya 65-dən çox olan şəxslər;

6.3. Narkoloji, psixonevroloji, vərəməqarşı, dəri-venereoloji dispanserlərdə uçota durmuş şəxslər;

6.4. Sığorta hadisəsi baş verdiyi zaman narkotik maddələrin, spirtli içkilərin və ya hər hansı zəhərləyici maddələrin təsiri altında olan şəxslər;

6.5. Onkoloji xəstələr, ürək-damar çatışmamazlığı olan xəstələr, qazanılmış immumçatışmamazlığı sindromu (QİÇS) ilə xəstələnmiş şəxslər, immun çatışmamazlığı virusuna (İÇV) yoluxmuş şəxslər;

6.6. Sığorta müqaviləsi bağlanan zaman psixi xəstəliyi olan şəxslər (əqli zəiflik, epilepsiya və sinir sisteminin digər pozuntuları);

**Maddə 7. Sığorta risklərindən istisnalar**

7.1. Bu sığorta aşağıdakı hadisə və halların təsirinin nəticəsi olaraq Sığorta olunanın həyat və sağlamlığına dəyən ziyana qarşı təminat vermir:

7.1.2. Spirtli içkilərin, iflicin, epilepsik tutmanın, Sığorta olunanın bütün bədəninə təsir edən qıcolmanın digər növlərinin təsiri və ya Sığorta olunanın psixi pozuntuları və ya huşunu itirməsi nəticəsində baş verən fərdi qəzalar.Bu istisna səhhətin belə pozulması hallarının və ya epilepsik tutmanın bu sığorta müqaviləsi ilə təminat verilən fərdi qəza hadisəsinin nəticəisndə baş verməsi hallarında tətbiq edilmir.

7.1.3. Sığorta olunanıн qəsdən cinayət əməlini törətməsi və ya törətmək cəhdi nəticəsində baş verən fərdi qəzalar;

7.1.4. Bilavasitə və ya dolayı yolla hərbi əməliyyatlar və ya vətəndaş müharibəsi ilə bağlı olaraq baş verən fərdi qəzalar;
7.1.5. Sığorta olunanın belə iğtişaşları təşkil edən şəxslərin tərəfindən çıxış etməsi şərtilə daxili iğtişaşların səbəb olduğu fərdi qəzalar;

7.1.6. Aşağıdakı nəticəsində Sığorta olunanla baş verən fərdi qəza hadisələri:

a) Mühərriksiz uçuş vasitəsindən, mühərrikli deltaplandan, səsdən daha sürətlə hərəkət edən təyyarədən, kosmik uçuş vasitələrindən istifadə, həmçinin paraşütlə tullanma;
b) Sığorta olunanın təyyarəçi və ya uçuş aparatında heyyət üzvü;
c) Uçuş vasitələrindən istifadə etməklə işlərin görülməsi;

7.1.7.Yüksək sürətin əldə edilməsi ilə üçün nəqliyyat vasitəsindən təlim məqsədi ilə istifasdə edilməsi hallarında nəqliyyat vasitəsinin sərnişini kimi idman tədbirlərində iştirak etməsi zamanı Sığorta olunanla baş verən fərdi qəzalar;

7.1.8. Nüvə enerjisindən istifadə ilə bilavasitə və ya dolayı yolla əlaqəli olan fərdi qəzalar;
7.1.9. Şüalanmanın səbəb olduğu səhhətin pozulması halları;

7.1.10. Sığorta olunanın özünün öz üzərində və ya Sığortalının təlimatı ilə hər hansı digər şəxsin Sığortalıya tətbiq etdiyi te5rapevtik və ya operativ müayinə metodlarının tətbiqi nəticəsində Sığorta olunanın səhhətinə ziyan dəyməsi;

Lakin terapevtik və ya operativ müayinə, həmçinin rentgen diaqnpstikasına zərurət, bu sığorta müqaviləsi ilə təminat verilən sığorta hadisəsindən irəli gəlirsə, sığorta təminatı öz qüvvəsini saxlamış sayılır.

7.1.11. İnfeksiya;

Lakin sığorta təminatı, Sığorta olunanın bu Sığorta müqaviləsi ilə təminat verilən fərdi qəza hadisəsinin nəticəsində infeksiyaya yoluxması halında öz qüvvəsini saxlayır.Özü-özlüyündə ciddi zədələnmiş ehtiva etməyən, lakin xəstəlik törədicilərinin orqanizmə dərhal və ya müəyyən müddətdən sonra daxil olmasına şərait yaradan dəri qatının və ya selikli qişanın zədələnməsi halları fərdi qəza hadisəsinin nəticəsində baş verən zədələnməyə aid edilmir.
7.1.12. Sərt və ya maye şəkilli cisimlərin udulması nəticəsində yaranan zəhərlənmə;

7.1.13. Qarın yırtığı.

Qarın yırtığlığının sığorta müqaviləsi ilə təminat verilən sığorta hadisəsinin səbəb olduğu xarici fiziki təsirin nəticəsində baş verməsi hallarında sığorta təminatı öz qüvvəsini saxlamaqda davam edir.

7.1.14. Bağların zədələnməsi, həmçinin daxili qansızma və ya beyinə qansızması.

Səhhətin belə pozulmasının əsas səbəblərinin bu sığorta müqaviləsi ilə təminat verilən sığorta hadisəsinin olması halında sığorta təminatı öz qüvvəsini saxlamaqda davam edir.

7.1.15. Baş vermə səbəblərindən asılı olmayaraq yaranan psixi pozuntular;

7.1.16. Hər hansı növdən olan xəstəlik;

7.1.17. Sığorta olunanın və ya onun ölümü halında sığorta ödənişini almaq hüququna malik olan şəxslərin qərəzli hərəkətləri;

7.1.18. Nüvə partlayışının təsiri, radiasiya və radioaktiv partlayışının təsiri, radiasiya və radioaktiv şüalanma;

7.1.19. Hərbi əməliyyatlar, manevrlər və digər hərbi tədbirlər;

7.1.20. Müharibə, hər cür xalq iğtişaşları, qiyam və tətillər;

7.1.21. Sığorta olunanın spirtli içkilərin, narkotik və ya zəhərli madələrin təsiri altında olması;
7.1.22. İdarə edilməsi üçün xüsusi icazə tələb olunan nəqliyyat vasitəsinin belə icazə olmadan Sığorta olunan tərəfindən idarə edilməsi;

7.1.23. Sığorta olunanın da içərisində olduğu nəqliyyat vasitəsinin idarəsini sürücülük vəsiqəsi olmayan və ya spirtli içkilərin, narkotik və ya zəhərli maddələrin təsiri altında olan şəxsə verməsi;

7.1.24. Sığortalının və ya Sığorta olunanın fərdi qəzanın meydana gəlməsinə birbaşa və ya dolayı yolla səbəb olan cinayət tərkibli əməl törətməsi və ya törətmək cəhdi;

7.1.25. Psixi və ya ağır əsəb pozuntuları, hipertoniya xəstəliyi (insult) epileptik ürəkkeçmələr (tutmalar);

7.1.26. Sunami, zəlzələ və ya vulkan püskürməsi;

7.1.27. Zöhrəvi xəstəliklər, qazanılmış immun çatışmamazlığı sindromu (QİÇS) və immun çatışmamazlığı virusu (İÇV) ilə əlaqədar meydana gələn bütün xəstəliklər;

7.1.28. Hamiləlik və ya doğuş;

7.1.29. Sığorta olunanın qəsdən özünü təhlükəyə məruz qoyması (insan həyatını xilas etmək cəhdləri istisna olmaqla), qəsdən özünə xəsarət yetirməsi, intihar və ya ona cəhd etməsi və ya tibbi məsləhətə riayət etməməsi;

7.1.30. Sığorta olunanın hər hansı yolla zəhərlənməsi;
7.2. Əgər Sığorta müqaviləsində başqa cür nəzərdə tutulmamışdırsa, bu sığorta həmçinin aşağıdakıların səbəb olduğu ölüm və ya bədən xəsarəti hallarını əhatə edmir:

4.1.1 - Ov, alpinizm, planerizm, speleologiya (maralları öyrənməklə əlaqədar elm), paraşütlə tullanma, sualtı idman növləri, qış idman növləri, reqbi, polo, döyüş sənətləri, , motosiklet və at yarışları, su xizək, hər hansı idman yarışlarında iştirak və ya belə yarışlara hazırlıq məşqlərində, həmçinin həyat və sağlamlıq üçün yüksək təhlükə yaradan hər hansı digər idman növlərində iştirak .

**Maddə 8. Sığortanın ərazisi**

8.1. Bu Qaydalar əsasında verilən sığorta təminatı sığorta müqaviləsində göstərilmiş ərazi hödudlarında baş verən fərdi qəzaları əhatə edir.

8.2. Sığorta müqaviləsində sığorta təminatının qüvvədə olduğu ərazi göstərilmədikdə, sığorta təminatı yalnız Azərbaycan Respublikasının ərazisində qüvvədədir.

## III Fəsil

## Sığorta məbləği və sığorta haqqı

**Maddə 9. Sığorta məbləği**

9.1. Sığorta məbləği Sığorta müqaviləsi (Şəhadətnaməsi) üzrə Sığortaçının Sığortalıya verməyi öhdəsinə götürdüyü ödənişin hədlərini müəyyən edir. Sığorta məbləği Sığortaçı tərəfindən Sığortalı ilə razılaşma əsasında müəyyən edilir və Sığorta müqaviləsində (Şəhadətnaməsində) göstərilir.

9.2. Əgər Sığorta müqaviləsində başqa cür nəzərdə tutulmsmışdırsa, sığorta məbləği bu sığortanın qüvvədə olduğu müddət ərzində baş verən bütün sığorta hadisələri üzrə verilə biləcək sığorta ödənişinin maksimum məbləğini müəyyən edir.

**Maddə 10. Sığorta haqqının hesablanması**

10.1. Sığorta haqqının miqdarı və ya onun hesablanması və ödənilməsi qaydası Sığorta müqaviləsi (sığorta şəhadətnaməsi) ilə müəyyən edilir.

10.2. Sığorta haqqının həcmi Sığorta müqaviləsi bağlandığı an qüvvədə olan və sığorta məbləği əsasında müəyyən edilən sığorta tariflərinə uyğun olaraq müəyyənləşdirilir.

**Maddə 11. Sığorta haqqının ödənilməsi**

11.1. Sığorta haqqını nağdsız formada ödəyərkən Sığortalı ödəniş tapşırığında sığorta haqqının ödənilməsinin əsasını təşkil edən Sığorta müqaviləsinin (Sığorta şəhadətnaməsinin) nömrəsinə istinad etməlidir.

11.2. Sığorta haqqının ödənilməsi Sığorta müqaviləsinin şərtlərinə uyğun olaraq həyata keçirilir.

12.3. Sığorta haqqı onun Sığortaçının bank hesabına daxil olduğu və ya Sığortaçı tərəfindən nağd ödəniş formasında alındığı gün ödənilmiş hesab olunur.

**Maddə 12. Sığorta haqqının vaxtında ödənilməməsi**

12.1. Sığorta haqqı və ya onun hissəsi vaxtında ödənilmədikdə Sığortaçı onun ödənilməsi üçün bu Qaydaların 12.2-ci bəndinin tələbini nəzərə alaraq yazılı surətdə 15 (on beş) günədək müddət müəyyən edə bilər.

12.2. Hər bir halda sığorta haqqı və ya onun razılaşdırılmış ilk hissəsi Sığorta müqaviləsi bağlandığı gündən bir aydan gec olmayaraq ödənilməlidir.

**Maddə 13. Sığorta müqaviləsinin bağlanması qaydası**

13.1. Bu Qaydalara əsasən Sığortaçı Sığorta müqaviləsini Sığortalı ilə bağlayır.

13.2. Sığorta müqaviləsini bağlamaqdan ötrü Sığortalı özünə məlum olan, Sığortaçının sığorta riskinin dərəcəsini müəyyənləşdirməsinə təsir edə biləcək halları özündə əks etdirən, müəyyən olunmuş formada yazılı ərizəni dolduraraq Sığortaçıya təqdim etməlidir. Bu ərizə Sığorta müqaviləsinə əlavə olunur və onun tərkib hissəsi hesab edilir.

13.3. Sığortalının ərizəsində aşağıdakı məlumatlar öz əksini tapmalıdır:

- 13.3.1. Sığortalının adı (fiziki şəxs olduqda, həmçinin soyadı və atasının adı), ünvanı və telefon nömrəsi;
- 13.3.2. Sığorta olunanların soyadı, adı, atasının adı, doğum tarixi, ünvanı və telefon nömrəsi;
- 13.3.3. Riskin dərəcəsini və sığorta haqqını müəyyənləşdirmək üçün lazım olan digər məlumatlar.

13.4. Sığorta müqaviləsi yazılı formada aşağıdakı kimi bağlanır:

- 13.4.1. Tərəflərin bu Qaydalar əsasında Sığorta müqaviləsini tərtib edərək qarşılıqlı imzalaması yolu ilə;
- 13.4.2. Bu Qaydalar ilə Sığortalının razı olmasını təsdiq etməsi şərti ilə Sığortaçı tərəfindən ona Sığorta şəhadətnaməsinin verilməsi yolu ilə;

13.5. Sığorta müqaviləsi bağlanarkən Sığortalı özünə məlum olan və Sığortaçının sığorta müqaviləsindən imtina etmək, yaxud onu məzmunu dəyişdirilmiş şəkildə bağlamaq qərarına təsir göstərə bilən bütün hallar barədə Sığortaçıya məlumat verməlidir.
13.6. Eyni sığorta marağı ilə bağlı bir neçə sığortaçı ilə sığorta müqaviləsi bağlayan Sığortalı bu barədə sığortaçılardan hər birinə məlumat verməlidir. Həmin məlumatda digər sığortaçının adı və müvafiq sığorta məbləği göstərilməlidir. Tələb edildikdə bu məlumatları təsdiq edən müvafiq sənədlər təqdim olunmalıdır.
13.7. Sığorta obyekti bir neçə sığortaçıda sığortalandığı halda, sığortaçılar Sığortalı qarşısında birgə məsuliyyət daşıyırlar.

**Maddə 14. Sığorta müqaviləsinə əlavələr və dəyişikliklər edilməsi və xitam verilməsi qaydası**

14.1. Sığorta müqaviləsinə edilən əlavələr və dəyişikliklər yazılı formada tərtib olunmalı və hər iki tərəfdən imzalanmalıdır.
14.2. Sığorta müqaviləsinə aşağıdakı hallarda vaxtından əvvəl xitam verilir:
14.2.1. Sığorta predmeti artıq mövcud olmadıqda;
14.2.2. Qanunvericilikdə müəyyən edilmiş hallar hallar istisna olmaqla, Sığortalı fiziki şəxs öldükdə və ya Sığortalı hüquqi şəxs ləğv olunduqda:
14.2.3. Sığorta hadisəsinin baş verməsi ehtimalı olmadıqda və sığorta riskinin mövcudluğu, səbəbi sığorta hadisəsi olmayan hallara görə başa çatdıqda;
14.2.4. Sığortaçı Sığortalı qarşısında öz öhdəliklərini yerinə yetirdikdə;
14.2.5. Sığorta marağı artıq mövcud olmadıqda;
14.2.6. Sığortalı sığorta haqqını Sığorta müqaviləsində müəyyən edilən qaydada ödəmədikdə;
14.2.7. Qanunvericilikdə müəyyən edilmiş digər hallarda.
14.3. Sığorta müqaviləsinin qüvvədə olduğu dövrdə Sığortalı məhkəmənin qərarı ilə fəaliyyət qabiliyyəti olmayan hesab edilmişdirsə, yaxud onun fəaliyyət qabiliyyəti məhkəmənin qərarı ilə məhdudlaşdırılmışdırsa, mülki məsuliyyət sığortası üzrə müqaviləyə məhkəmənin müvafiq qərarının qüvvəyə mindiyi andan xitam verilmiş hesab edilir, digər hallarda isə belə Sığortalının hüquq və vəzifələrini onun qəyyumu və ya himayəçisi həyata keçirir.

**Maddə 15. Sığorta müqaviləsinə vaxtından əvvəl xitam vermə ilə bağlı xəbərdar etmə**

15.1. Bu Qaydaların 14.2-ci bəndində göstərilən hallarda Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verilməsi üçün əsas olan şərait yarandıqda, Sığorta müqaviləsinə xitam verilməsində maraqlı olan tərəf dərhal digər tərəfi bu barədə xəbərdar etməlidir.

15.2. Sığorta müqaviləsində nəzərdə tutulmuş hallarda, həmçinin tərəflərin başqa cür razılaşmasına əsasən, Sığorta müqaviləsinə Sığortalının və ya Sığortaçının tələbi ilə vaxtından əvvəl xitam verilərkən, bu barədə bir tərəf digərinə ən azı 30 (otuz) gün əvvəl (sığorta müqaviləsi beş ildən çox müddətə bağlanmış olduqda 60 (altmış) gün, üç aydan az müddətə bağlanmış olduqda isə 5(beş) iş günü əvvəl), tələbini əsaslandırdığı yazılı bildiriş göndərməlidir. Belə bildiriş Sığorta müqaviləsinin ləğvi tarixini özündə əks etdirməklə Sığortalının və ya Sığortaçının Sığorta müqaviləsində göstərilən ünvanına göndərildikdə, Sığorta müqaviləsi bildirişdə göstərilən tarixdən ləğv edilmiş sayılır. Bu bildirişin poçt vasitəsilə göndərilməsi, yuxarıda göstərildiyi kimi, həmin xəbərdarlığın edilməsi faktının sübut edilməsi ücün kifayətdir və Sığorta müqaviləsi bildirişdə göstərilən tarixdən və vaxtdan etibarsız sayılacaq.

**Maddə 16. Sığorta müqaviləsinə vaxtından əvvəl xitam vermənin nəticələri**

16.1. Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə, sığorta qanunvericiliyində nəzərdə tutulmuş hallar istisna olmaqla, Sığortaçı həmin Sığorta müqaviləsi üzrə işlərin aparılması xərclərini çıxmaqla Sığorta müqaviləsinin qurtarmamış müddəti üçün sığorta haqqını ona qaytarır;

16.2. Sığorta müqaviləsinə Sığortaçının tələbi ilə vaxtından əvvəl xitam verildikdə o, sığorta haqqını bütünlüklə Sığortalıya qaytarır; əgər bu tələb Sığortalının Sığorta müqaviləsi üzrə vəzifələrini yerinə

yetirməməsi ilə bağlıdırsa, Sığortaçı həmin Sığorta müqaviləsi üzrə işlərin aparılması xərcləri çıxılmaqla, Sığorta müqaviləsinin qurtarmamış müddəti üçün sığorta haqqını qaytarır.

16.3. Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildiyi halda, əgər xitam verilmə anınadək Sığortaçı tərəfindən Sığortalıya ödənilmiş sığorta haqqına bərabər və ya ondan çox miqdarda sığorta ödənişi verilmişdirsə, sığorta haqqı Sığortalıya qaytarılmır.

16.4. Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildiyi halda, əgər xitam verilmə anınadək Sığortaçı tərəfindən Sığortalıya ödənilmiş sığorta haqqından az miqdarda sığorta ödənişi verilmişdirsə, həmin sığorta haqqı məbləği ilə sığorta ödənişi məbləği arasındakı fərq miqdarında sığorta haqqının Sığortalıya qaytarılması müvafiq olaraq bu Qaydaların 16.1-ci və 16.2-ci bəndlərində nəzərdə tutulmuş qaydada həyata keçirilir.

16.5. Sığorta müqaviləsi bu Qaydaların 14.3-cü bəndində müəyyən edilmiş məhkəmə qərarı əsasında xitam verilmiş hesab edildikdə, Sığortaçı həmin müqavilə üzrə işlərin aparılması xərclərini çıxmaqla müqavilənin qurtarmamış müddəti üçün sığorta haqqını, bu Qaydaların 16.3-cü və 16.4-cü bəndlərinin tələbləri nəzərə alınmaqla Sığortalıya qaytarır.

16.6. Sığorta müqaviləsi üzrə sığorta haqqının yenidən hesablanmalı olması halında Sığortaçı bunlardan hansının daha yüksək olmasından asılı olaraq, artıq qazanılmış sığorta haqqını və ya hər hansı minimal və (və ya) depozit sığorta haqqının qısamüddətli hissəsini saxlamaq hüququna malikdir.

**Maddə 17. Sığorta müqaviləsində əlavə şərtlərin nəzərdə tutulması**

Sığorta müqaviləsi bağlanarkən Sığortalı və Sığortaçı qanunvericiliyə zidd olmayan başqa şərtlər barədə razılığa gələ bilərlər.

**Maddə 18. Sığorta müqaviləsinin qüvvəyə minməsi**

Sığorta müqaviləsində başqa cür nəzərdə tutulmamışdırsa, Sığorta müqaviləsi sığorta haqqının ilk hissəsinin və ya tam ödənilməsindən sonra qüvvəyə minir.

**Maddə 19. Sığorta müqaviləsi qüvvədə olduğu zaman tərəflərin qarşılıqlı münasibətləri**

19.1. Sığortalı sığorta müqaviləsi bağlandıqdan sonra meydana çıxan və Sığortaçının müqavilədən imtina etmək, yaxud onu məzmunu dəyişdirilmiş şəkildə bağlamaq qərarına təsir göstərə bilən sığorta riskinin artması ilə bağlı bütün hallar barədə Sığortaçıya məlumat verməlidir.
19.2. Sığorta riskinin əhəmiyyətli dərəcədə artmasına təsir göstərə bilən hallar haqqında məlumatı aldıqdan sonra Sığortaçı :

- 19.2.1. Sığorta müqaviləsinə müvafiq dəyişikliklər edə bilər;
- 19.2.2. əlavə sığorta haqqının ödənilməsini tələb edə bilər;
- 19.2.3. bu şərait yarandıqdan sonra Sığorta müqaviləsinə xitam verə bilər.

**Maddə 20. Mühüm şərtlər**

20.1. Sığorta müqaviləsində Mühüm şərtlər müəyyən oluna bilər.

20.2. Sığortalı və ya Sığorta olunan tərəfindən belə şərtlərin yerinə yetirilməsi Sığortaçının sığorta ödənişini verməkdən imtina etməsi və ya sığorta müqaviləsinə xitam vermək üçün əsas sayılır.

**Maddə 21. Sığorta müqaviləsinin müddəti**

21.1. Sığorta müqaviləsi müəyyən müddətə bağlanılır.

21.2. Bu sığorta yalnız Sığorta müqaviləsinin qüvvədə olduğu müddət ərzində baş verən sığorta hadisələri üçün təminat verir

## IV Fəsil
## Sığorta hadisəsi zamanı ediləcək hərəkətlər

**Maddə 22. Sığorta hadisəsi baş verdikdə Sığortalının vəzifələri**

22.1. Bu Qaydalar əsasında bağlanmış Sığorta müqaviləsi üzrə sığorta hadisəsinin baş verməsi barədə Sığortalı və ya Sığorta olunan şəxs, yaxud Faydalanan şəxs hadisədən xəbər tutduqdan dərhal sonra və ya mümkün olan ən qısa müddət ərzində Sığortaçıya və ya onun nümayəndəsinə, eyni zamanda qanunvericiliyə uyğun olaraq həmin hadisə barədə məlumatlandırılmalı olan səlahiyyətli dövlət orqanlarına hər hansı vasitə ilə xəbər verməlidir.
22.2. Sığorta müqaviləsində, yaxud şəhadətnaməsində sığorta hadisəsinin baş verməsi barədə məlumat verməyin müddəti və (və yaxud) metodu göstərilmişdirsə, bu, müəyyən olunmuş müddətdə və həmin metodla həyata keçirilməlidir.
22.3. Sığortalı sığorta hadisəsinin baş verməsi faktını təsdiq edən və (və ya) sığorta ödənişinin həcminin müəyyənləşdirilməsi üçün lazım olan sənədləri və məlumatları Sığortaçıya təqdim etməlidir.
22.5. Sığortalı Sığortaçıya araşdırma aparmağa və ona zərərin baş verdiyi şəraiti, onun xarakteri və həcmini müəyyənləşdirmək üçün əhəmiyyət daşıyan sənədlərlə maneəsiz tanış olmaq imkanını verməlidir;
22.6. Sığorta təminatı verildikdən sonra Sığortalının itkiləri üçüncü şəxslər tərəfindən tam şəkildə, yaxud qismən ödənilərsə, o cümlədən qanunvericilikdə nəzərdə tutulmuş iddia müddəti ərzində qanuna görə Sığortalını sığorta təminatını əldə etmək hüququndan tam şəkildə və ya qismən məhrum edən şərait yaranarsa, üçüncü şəxslərdən vəsaitləri aldıqdan sonra, yaxud Sığortaçıdan qanun əsasında sığorta təminatının müvafiq hissəsini Sığortaçıya qaytarmaq əsasında ödənişinin ödənilmə tələbi alındıqdan sonra 5 iş günü ərzində müvafiq məbləği geri qaytarmalıdır.
22.7. Sığorta hadisəsinin baş verməsi və vurulan zərərin həcminin sübuta yetirilməsi öhdəliyini Sığortalı daşıyır.

**Maddə 23. Ziyanın qarşısının alınması və həcminin azaldılması**

Bu sığorta ilə əhatə olunmasından asılı olmayaraq, Sığortalı və ya Sığorta olunan artıq baş vermiş istənilən zərər, xəsarət və yaranmış məsuliyyətin azaldılması və gələcəkdə baş verə biləcək belə halların qarşısının alınması məqsədi ilə bütün ağlabatan və zəruri tədbirləri görməyə, o cümlədən tibbi yardım üçün müraciət etməyə və yardım ggöstərən həkimin bütün tövsiyyələrini yerinə yetirməyə borcludur Sığortalının və ya Sığorta olunanın belə tədbirləri görməməsinin birbaşa və ya dolayı nəticəsi olaraq baş vermiş istənilən zərər, xəsarət və yaranmış məsuliyyətə münasibətdə sığorta təminatı verilmir. Belə tədbirlər həyata keçirilərkən Sığortalı və Sığorta olunan Sığortaçının verdiyi bütün təlimatları yerinə yetirməyə borcludurlar.

**Maddə 24. Sığortaçı tərəfindən nəzarət**

24.1. Sığortalı sığorta hadisəsinə aid bütün sənədləri və məlumatı Sığortaçıya təqdim etmək, həmçinin sığorta hadisəsi ilə bağlı məsələlərə baxan səlahiyyətli dövlət orqanlarının bütün hərəkətləri barədə təxirə salınmadan məlumat vermək öhdəliyi daşıyır.

24.2. Sığortaçının Sığorta olunanı əlavə tibbi müayinədən keçirmək hüququ vardır.

**Maddə 25. Sığorta hadisəsinin sübut olunması**

Sığorta hadisəsi faktının mövcudluğunu və onun səbəb olduğu ziyanın həcmini sübut etmək Sığortalının vəzifəsidir.

## V Fəsil

## Sığorta ödənişi

**Maddə 26. Sığorta ödənişinin həcmi**

26.1. Sığorta ödənişinin həcmi fərdi qəza hadisəsi nəticəsində alınan xəsarətin ağırlığından asılı olmaqla, sığorta məbləğinin aşağıdakı faizlərini təşkil edir:

26.1.1. ölüm – 100 %;

26.1.2. ümumi əmək qabiliyyətinin daimi itirilməsi:

**Variant A.** Aşağıdakı əlillik qrupları üzrə:

I qrup əlillik – 80%

II qrup əlillik – 60%

III qrup əlillik – 40%

**Variant B.** Aşağıdakı sığorta ödənişləri cədvəli əsasında:

| **Əlillik** | **Sığorta ödənişləri cəmi, Sığorta məbləğinin faiz nisbətində** |
|---|---|
| Hər iki gözdə görmə qabiliyyətinin tam itirilməsi | 100 |
| Tam müalicəolunmaz psixoz | 100 |
| Hər iki qolun və ya hər iki əlin itirilməsi | 100 |
| Hər iki qulağın travma mənşəyi ilə tam karlığını | 100 |
| Aşağı çənənin çıxardılması | 100 |
| Nitqin tam itirilməsi | 100 |
| Bir qolun və bir ayağın tam itirilməsi | 100 |
| Bir qolun və bir ayaq pəncəsinin tam ititrilməsi | 100 |
| Bir əlin və bir ayaq pəncəsinin tam itirilməsi | 100 |
| Bir əlin və bir ayağın tam itirilməsi | 100 |
| Hər iki ayağın tam itirilməsi | 100 |
| Hər iki ayaq pəncəsinin tam itirilməsi | 100 |
| **BAŞ** | |
| Kəllə sümüyünün bütün qalınlığı boyu zədələnməsi: | |
| - ən azı 6 $sm^2$ olan səth | 60 |
| - 3 $sm^2$ – dən 6 $sm^2$ – dək olan səth | 30 |
| - 3 $sm^2$ – dən az olan səth | 20 |

| | | |
|---|---|---|
| Aşağı çənənin qismən, qalxan hissənin bütünlükdə və ya yuxarı çənə sümüyünün yarısının çıxardılması | 40 | |
| Bir gözün tam itirilməsi | 40 | |
| Bir qulağın tam karlığı | 30 | |
| **YUXARI ƏTRAFLAR** | | |
| | **Sağ** | **Sol** |
| Bir qolun və ya bir əlin itirilməsi | 60 | 50 |
| Qol sümük maddəsinin əsaslı zədələnməsi (müəyyənləşdirilmiş və müalicə olunmaz zədələnmə) | 50 | 40 |
| Yuxarı ətrafların tam iflici (sinirlərin müalicəolunmaz zədələnməsi ) | 65 | 55 |
| Dolanan sinirin tam iflici | 20 | 15 |
| Bazunun anikolozu | 40 | 30 |
| Əlverişli vəziyyətdə fiksə edilərək dirsəyin anikolozu (düz bucaqdan 15 dərəcə aralı) | 25 | 20 |
| Əlverişsiz vəziyyətdə fiksə edilərək dirsəyin ankilozy | 40 | 35 |
| İki bazu önü sümük maddəsinin əsaslı itirilməsi (müəyyənləşdirilmiş və müalicəolunmaz zədələnmə) | 40 | 30 |
| Orta sinirin tam iflici | 45 | 35 |
| Bağlama yerində mil sinirinin tam iflici | 40 | 35 |
| Bazu önünün mil sinirinin tam iflici | 30 | 25 |
| Əlin mil sinirinin tam iflici | 20 | 15 |
| Dirsək sinirinin tam iflici | 30 | 25 |
| Biləyin əlverişli vəziyyətdə fiksə edilərək anikolozu (düz və əlin üstü vəziyyətdə ) | 20 | 15 |
| Biləyin əlverişsiz vəziyyətdə fiksə edilərək ankilozu (bükmə və deformasiyalı açma və ya çevrilmiş vəziyyətdə ) | 30 | 25 |
| Baş barmağın tam itirilməsi | 20 | 15 |
| Baş barmağın qismən itirilməsi (dırnaq falanqası) | 10 | 5 |
| Baş barmağın tam ankilozu | 20 | 15 |
| Şəhadət barmağının tam amputasiyası | 15 | 10 |
| Şəhadət barmağının iki barmaq sümüyünün tam itirilməsi | 10 | 8 |
| Şəhadət barmağının dırnaq falanqasının tam itirilməsi | 5 | 3 |
| Baş barmağın və şəhadət barmağının eyni zamanda amputasiyası | 35 | 25 |
| Şəhadət barmağından savayı baş barmağın və digər barmağın tam itirilməsi | 25 | 20 |
| Baş və şəhadət barmağından savayı iki barmaığn tam itirilməsi | 12 | 8 |

| | | |
|---|---|---|
| Baş və şəhadət barmağından savayı üç barmağın tam itirilməsi | 20 | 15 |
| Baş barmaq daxil olmaqla dörd barmağın itirilməsi | 45 | 40 |
| Baş barmaqdan savayı dörd barmağın itirilməsi | 40 | 35 |
| Orta barmağın tam itirilməsi | 10 | 8 |
| Baş və şəhadət barmaqlarından savayı bir barmağın tam itirilməsi | 7 | 3 |

| **AŞAĞI ƏTRAFLAR** | |
|---|---|
| Ombanın (yuxarı hissəsinin ) tam itirilməsi | 60 |
| Ombanın (aşağı hissəsinin ) və ayağın tam itirilməsi | 50 |
| Ayaq pəncəsinin tam itirilməsi (baldır ayaq barmağının disartikulyasiyası (parçalara bölünməsi ) | 45 |
| Ayaq pəncəsinin qismən itirilməsi Topuqaltı sümüyün disartikulyasiyası (parçalara bölünməsi ) | 40 |
| Ayaq pəncəsinin qismən itirilməsi (orta ayaq dırnağının disartikulyasiyası (parçalara bölünməsi) | 35 |
| Ayaq pəncəsinin qismən itirilməsi (ayaq darağı-ayaq dırnağı arxasının disartikulyasiyası (parçalara bölünməsi) ) | 30 |
| Aşağı ətrafların tam iflici (sinirlərin müalicəolunmaz zədələnməsi) | 60 |
| Xarici dizaltı sinirin tam iflici | 30 |
| Daxili dizaltı sinirin tam iflici | 20 |
| İki sinirin tam iflici (xarici dizaltı sinirin və daxili dizaltı sinirin tam iflici) | 40 |
| Ombanın yan hissəsinin anikolozu | 40 |
| Dizin anikolozu | 20 |
| Ombanın və ya hər iki ayaq sümüklərinin sümük maddəsini itirilməsi (müalicəolunmaz hal) | 60 |
| Diz qapağının sümük maddəsinin itirilməsi və bununla bağlı fraqmentlərin əsaslı ayrılması və ayağın uzadılması (dartılması)zamanı hərəkətlərin məhdudlaşması | 40 |
| Diz qapağının itirilməsi, hərəkətlərin saxlanılması şərti ilə | 20 |
| Aşağı ətrafların ən azı 5 sm qısaldılması | 30 |
| Aşağı ətrafların 3sm-dən 5-sm-ə dək qısaldılması | 20 |
| Aşağı ətarfların 1 m-dən 3-sm-dək qısaldılması | 10 |
| Ayaq pəncəsinin bütün barmaqlarının amputasiyası | 25 |
| Ayaq pəncəsinin baş barmağı da daxil olmaqla dörd barmağın amputasiyası | 20 |
| Ayaq pəncəsinin dörd barmağının tam itirilməsi | 10 |
| Ayaq pəncəsinin baş barmağının tam itirilməsi | 10 |
| Ayaq pəncəsinin iki barmağının tam itirilməsi | 5 |

| | |
|---|---|
| Ayaq pəncəsinin, baş barmaqdan savayı bir barmağın amputasiyası | 3 |

26.1.3. Sınıqlar:

| | | |
|---|---|---|
| 1 | Omba və ya çanaq sümüyünün sınığı (bud sümüyü və büzdümdən savayı):<br>a) Çoxsaylı sınıqlar (ən azı biri ağır və biri tam )<br>b) Bütün digər ağır sınıqlar<br>c) Çoxsaylı sınıqlar, ən azı biri tam<br>ç) Bütün digər sınıqlar | 100<br>50<br>30<br>20 |
| 2 | Omba və dabanın sınığı:<br>a) Çoxsaylı sınıqlar (ən azıı biri ağır biri tam)<br>b) Bütün digər ağır sınıqlar<br>c) Çoxsaylı sınıqlar , ən azı biri tam<br>ç) Bütün digər sınıqlar | 50<br>40<br>30<br>20 |
| 3 | Baldır, körpücük sümüyü, topuq, dirsək oynağı, bazu və ya bazu önü sümüyünün sınığı (bilək daxil olmaqla, lakin mil sümüyünün kəsik sınığı istisna olmaqla):<br>a) Çoxsaylı sınıqlar (ən azı biri ağır və biri tam)<br>b) Bütün digər sınıqlar<br>c) Çoxsaylı sınıqlar, ən azı biri tam<br>ç) Bütün digər ağır sınıqlar | 40<br>30<br>20<br>12 |
| 4 | Aşağı çənənin sınığı:<br>a) Çoxsaylı sınıqlar (ən azı biri ağır və biri tam)<br>b) Bütün digər ağır sınıqlar<br>c) Çoxsaylı sınıqlar, ən azı biri tam<br>ç) Bütün digər sınıqlar | 30<br>20<br>16<br>8 |
| 5 | Kürək, diz qapağı, döş sümüyü, əlin, (barmaqlar və biləkdən savayı), ayaq pəncəsinin sınığı (barmaqlar və dabandan savayı) sınığı:<br>a) Bütün digər ağır sınıqlar<br>b) Bütün digər sınıqlar | 20<br>10 |
| 6 | Bazu önü mil sümüyünün klassik sınığı:<br>a) Ağır sınıqlar<br>b) Bütün digər sınıqlar | 20<br>10 |
| 7 | Onurğa sütununun sınıqları (büzdümdən savayı bütün fəqərələr):<br>a) Bütün kompresyon sınıqlar<br>b) Bütün tinəbənzər, köndələn çıxıntılar və ya çanaq sümüyünün sınığı<br>c) Onurğa sütununun bütün digər sınıqları | 20<br>20<br>10 |
| 8 | Bir və ya bir neçə qabırğanın, almacıq sümüyünün, büzdümün, yuxarı çənənin, burunun, bir və ya bir neçə | |

| | | |
|---|---|---|
| | ayaq barmaqlarının, bir və ya bir neçə əl barmaqlarının sınığı:<br>a) Çoxsaylı sınıqlar (ən azı biri ağır və biri tam)<br>b) Bütün digər ağır sınıqlar<br>c) Çoxsaylı sınıqlar, ən azı biri tam<br>ç) Bütün digər sınıqlar | <br>16<br>12<br>8<br>4 |

Xüsusi anlayışlar :

- İtirilmə: əl, ayaq pəncəsi, qol və ya ayağın itirilməsi, bədən üzvünün fiziki yolla ayrılması və ya onun funksiyalarının tam və ya daimi olaraq itirilməsi deməkdir.
- Eşitmə qabiliyyətinin itirilməsi: eşitmə qabiliyyətinin tam və bərpasız itirilməsi deməkdir.
- Nitqin itirilməsi :nitqin tam və ya bərpasız itirilməsi deməkdir.
- Gözün itirilməsi: görmə qabiliyyətinin tam və bərpasız olaraq itirilməsi deməkdir.. Əgər göz korreksiyasından sonra görmə qabiliyyəti 3/60 və ya Şnellen (Snellen) cədvəli üzrə bundan az olaraq qalırsa, belə hal baş vermiş hesab edilir.

Xüsusi müddəalar:

- Əl barmaqlarının (baş və şəhadət barmaqlarından savayı) və ayaq pəncəsinin barmaqlarının (baş barmaqdan savayı) ankilozu bu bədən üzvlərinin itirilməsi üzrə ödənilməli olan ödənişin yalnız 50%-ə haqq verir.
- Əgər sığorta olunan solaxaydırsa və bunun ərizə formasında qeyd etmiş və ya rəsmi olaraq solaxay kimi qəbul edilirsə, bu halda sol və ya sağ əl-ayağın müxtəlif əlilliyinə görə müəyyən edilmiş faiz nisbətlərinin yerləri dəyişdiriləcəkdir

26.2. Əmək qabiliyyətinin müvəqqəti ümumi itirilməsi zamanı əmək qabiliyyətinin müvəqqəti itirilməsinin 60-ci təqvim günündən başlayaraq 120 gün müddətində ümumi sığorta məbləğinin 75%-ni aşmamaq şərtilə əmək qabiliyyətinin müvəqqəti itirilməsinin hər gününə görə - 50 (əlli) manat məbləğində sığorta ödənişi veriləcək.

26.3. Yanıqların olması halında sığorta ödənişi, bu maddənin 26.1.2-ci bəndində müəyyən edilmiş əlillik dərəcələri əsasında verilir.

**Maddə 27. Fərdi qəza hadisəsinin nəticələrinin təzahür müddəti**

27.1. Ölüm bədbəxt hadisənin baş verdiyi andan 12 ay müddətində baş verərsə, bədbəxt hadisə nəticəsində baş vermiş ölüm hesab olunur.

27.2. Əmək qabiliyyətinin daimi itirilməsinə görə ödəniş o halda verilir ki, əmək qabiliyyətinin itirilməsi bədbəxt hadisənin baş verdiyi andan 12 ay müddətində baş vermiş olsun və 12 ay ərzində davam etsin.

**Maddə 28. Sığorta müqaviləsində göstərilməyən bədən xəsarətləri**

Sığorta müqaviləsində göstərilməyən bədən xəsarətləri nəticəsində əmək qabiliyyətinin hər hansı daimi itirilməsinə görə ödəniş Sığorta olunanın məşğuliyyət növü nəzərə alınmadan, həmin bədən xəsarətlərinin Sığorta olunanın ümumi əmək qabiliyyətinin itirilməsinə təsiri dərəcəsinin, bu Sığorta müqaviləsində göstərilmiş bədən xəsarətlərinin Sığorta olunanın ümumi əmək qabiliyyətinin itirilməsinə təsiri dərəcəsi ilə müqayisə etmək yolu ilə müəyyən edilərək analoji qaydada veriləcəkdir.

**Maddə 29. bir neçə xəsarət üzrə sığorta ödənişi**

29.1. Bir bədbəxt hadisə nəticəsində eyni vaxtda bir neçə bədən xəsarəti alınarsa, sığorta ödənişinin həcmi xəsarət üçün nəzərdə tutulmuş sığorta ödənişi hissələrinin cəmləşdirilməsi yolu ilə müəyyən olunur.

29.2. Bir və ya bir neçə bədbəxt hadisə nəticəsində bədənin bir neçə ayrı hissəsinin (bilək, əl, pəncə, ayaq) aldığı xəsarətə münasibətdə ödənişin ümumi məbləği bədənin bütün hissələrindən istifadə imkanlarının itirilməsi və ya fiziki olaraq itirilməsi zamanı verilən sığorta ödənişi məbləğini aşa bilməz.

**Maddə 30. Əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə sığorta ödənişi**

Əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə ödəniş yalnız həmin sığorta hadisəsi üzrə əmək qabiliyyətinin müvəqqəti itirilməsinin tam vaxtı müəyyən olunduqdan sonra həyata keçirilir.

**Maddə 31. Sığorta ödənişinin verilməsi üçün tələb olunan sənədlərin siyahısı**

Sığorta ödənişinin verilməsi haqqında qərar qəbul etmək üçün Sığortalı bədbəxt hadisənin baş verməsi faktını, həmçinin, bədbəxt hadisə nəticəsində Sığorta olunanıн həyat və sağlamlığına vurulan ziyanın həcmini göstərən bütün sənədləri, o cümlədən aşağıdakı sənədləri Sığortaçıya təqdim etməlidir:
31.1. sığorta hadisəsi haqqında yazılı ərizə;
31.2. Sığorta müqaviləsinin (Sığorta şəhadətnaməsinin) əsli;
31.3. sığorta hadisəsinin baş verməsini faktını təsdiq edən sənədlər, o cümlədən:

31.3.1. əmək qabiliyyəti müvəqqəti itirildikdə-əmək qabiliyyətinin müvəqqəti itirilməsi vərəqəsi;

31.3.2. əməkqabiliyyəti daimi itirildikdə- Tibbi Sosial Ekspert Komissiyasının arayışı;

31.3.3. ölüm zamanı – VVAQ orqanının arayışı aid edilir.

31.4. Sığortaçının mülahizəsinə əsasən, sığorta ödənişinin verilməsi haqqında qərar qəbul etmək üçün lazım olan digər sənədlər.

**Maddə 32. Sığorta ödənişinin həyata keçirilməsi qaydası və şərtləri**
32.1. Sığortaçı sığorta ödənişini Sığorta olunana вя йа онун qanuni vərəsələrinə ödəyir.
32.2. Sığorta ödənişinin miqdarının müəyyən edilməsi və ödənilməsi qaydası bu Qaydalara əsasən bağlanan Sığorta müqaviləsi ilə müəyyən edilir.
32.3. Sığorta müqaviləsində azadolma məbləği nəzərdə tutulduğu halda, sığorta ödənişi azadolma məbləği çıxılmaqla ödənilir.
32.4. Sığorta ödənişinin verilməsi zamanı Sığortaçı sığorta ödənişi məbləğindən Sığortalının ona ödəməli olduğu, vaxtı çatmış və ya gecikdirilmiş sığorta haqqı məbləğini tutmaq hüququna malikdir.
32.5. Qanunvericilikdə və bu Qaydalarda nəzərdə tutulan sığorta ödənişindən imtina halları istisna olmaqla, Sığortaçı bu Qaydaların 31-ci maddəsində sadalanan sənədləri aldıqdan sonra 15 iş günü ərzində sığorta aktını tərtib edir və razılaşdırılması üçün bu sənədi Сыьорталыйа və ya Sığorta olunana, yaxud Faydalanan şəxsə təqdim edir, yaxud da sığorta ödənişinin verilməsindən imtina olunduğu halda imtinanın səbəblərini əsaslandırmaqla Sığortalıya yazılı məlumat verir.
32.6. Sığorta ödənişinin verilməsi sığorta aktı həm Sığortaçı, həm də Sığortalı tərəfindən imzalandıqdan sonra 10 iş günü ərzində həyata keçirilir.
32.7. Qanunvericilikdə və ya bu Qaydalarda nəzərdə tutulmuş əsaslar aşkar olunduqda və ya əmələ gəldikdə, Sığortaçı verilmiş sığorta ödənişinin geri qaytarılması tələbini irəli sürmək hüququna malikdir.

**Maddə 33. Sığorta ödənişinin verilməsindən imtinanın əsasları**
Əgər Sığorta müqaviləsində başqa cür nəzərdə tutulmamışdırsa, aşağıdakı halların nəticəsində ortaya çıxan istənilən zərərlərin bu sığorta ilə əvəzi ödənilmir və sığorta ödənişinin verilməsindən imtina edilir
33.1. bu Qaydaların 19.1 və 22.1-ci bəndlərinin tələblərinə əməl edilməməsi nəticəsində, o cümlədən sığorta predmeti və (və ya) sığorta hadisəsi barəsində Sığortalının Sığortaçıya qəsdən yanlış məlumat verməsi nəticəsində Sığortaçının sığorta riskini qiymətləndirmək, həmçinin sığorta hadisəsinin səbəblərini və (və ya) dəyən zərərin həcmini müəyyənləşdirmək imkanından tam və ya qismən məhrum olması ilə əlaqədar olaraq onun mənafeləri əhəmiyyətli dərəcədə pozulduqda ;
33.2. Sığortalının və ya Sığorta olunanın sığorta hadisəsinin baş verməsinə yönələn qəsdən etdiyi hərəkəti və ya hərəkətsizliyi, habelə sığorta hadisəsi ilə birbaşa səbəb əlaqəsində olan qəsdən cinayət törətməsi;

33.3. Sığorta müqaviləsi və ya qanunla hərbi risklərin sığortalanması nəzərdə tutulmadıqda hadisənin baş verməsinin hərbi əməliyyatlar və ya hərbi xarakterli tədbirlər hesab edilən halların nəticəsi olması;
33.4. Sığortaçının sığorta hadisəsinin baş verməsi səbəblərini araşdırmasına Sığortalı tərəfindən maneçilik törədilməsi;
33.5. baş vermiş hadisənin Sığorta müqaviləsinə görə sığorta hadisəsi hesab edilməməsi;
33.6. sığorta hadisəsinin sığorta haqqının tam və ya onun ilk hissəsinin ödənilməsi müddəti başa çatdıqdan sonra baş verməsi halında sığorta haqqı ödənilməmiş olduqda;
33.7. sığorta hadisəsinin sığorta haqqının növbəti hissəsinin müqavilədə nəzərdə tutulmuş ödənilməsi müddəti başa çatdıqdan 15 gün sonra baş verməsi halında sığorta haqqının müvafiq hissəsi ödənilməmiş olduqda;
33.8. sığorta hadisəsinin bu Qaydaların 12.1-ci bəndində nəzərdə tutulmuş halda Sığortaçının müəyyən etdiyi müddətin başa çatmasından 3 gün sonra baş verməsi halında sığorta haqqının müvafiq hissəsi ödənilməmiş olduqda.
33.9. bu Qaydalarda nəzərdə tutulan Mühüm şərtlərin yerinə yetirilməməsi ilə sığorta hadisəsi arasında əlaqənin olub-olmamasından asılı olmayaraq Sığortalının Sığorta müqaviləsində nəzərdə tutulan belə şərtlərə əməl etməməsi;
33.10.yerinə yetirilmədiyi təqdirdə sığorta hadisəsinin baş verməsinə və ya zərərin həcminin artmasına gətirib çıxaran, Sığortalıı tərəfindən sığorta müqaviləsinə, bu qaydalara və ya qanunvericiliyə əsasən ona həvalə edilən öhdəlik və şərtlərin yerinə yetirilməsi. Bu halda Sığortaçının verməməyə haqlı olduğu sığorta ödənişinin məbləği, belə yerinə yetirilməmənin sığorta hadisəsinin baş verməsinə və ya zərərin həcminin artmasına təsir dərəcəsinə müvafiq olmalıdır.

**Maddə 34. Sığorta müqaviləsinin şərtlərinin yerinə yetirilməməsinə və ya lazımi qaydada yerinə yetirilməməsinə görə tərəflərin məsuliyyəti**

Sığorta müqaviləsinin şərtlərinin yerinə yetirilməməsinə və ya lazımi qaydada yerinə yetirilməməsinə görə tərəflər qanunvericiliklə müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.

**Maddə 35. Mübahisələrin həlli qaydası**

Bu Qaydalar əsasında bağlanmış sığorta müqaviləsindən irəli gələn mübahisələr Sığortaçı ilə Sığortalı arasında danışıqlar yolu ilə, tərəflər razılığa gələ bilmədikdə isə qanunvericiliklə müəyyən edilmiş qaydada həll edilir.